İMAM ƏLBANİNİN ƏSƏRLƏRİ SİLSİLƏSİNDƏN 1

Tovhid.info

# Ramazan gecələrini İBADƏTLƏ KEÇİRMƏYİN

## -FƏZİLƏTİ VƏ ŞƏKLİ-

Müəllif
İmam Muhəmməd Nasiruddin əl-Əlbani
(Allah qəni-qəni rəhmət eləsin!)

Tərcümə və qeydlər:
Əbu Zeyd Həbibli

Redaktə:
Amin Məhərrəmov
Fərhad Adayev

www.tovhid.info

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

# Tərcüməçinin müqəddiməsi

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Ona həmd edir, Ondan yardım istəyir, Onun məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu azdıra biləcək, kimi də azdırsa, onu doğru yola yönəldəcək kəs yoxdur. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə də şahidlik edirəm ki, Muhəmməd Allahın qulu və son elçisidir. Allahın ona, əhlinə və əshabına salavatı və salamı olsun!

Sizlərə təqdim etdiyimiz növbəti kitabımız bu əsrin dahi hədis alimlərindən və sələfi dəvətin imamlarından biri olan şeyx Muhəmməd Nasiruddin əl-Əlbaninin qələmə aldığı *"Qiyamu Ramadan"* – adlı kitabının tərcüməsidir. Müəllif kitabı iki hissəyə ayırmış, birinci hissədə Ramazan və digər aylarda qılınan gecə ibadətlərinin əhkamları, ikinci hissədə isə etikaf ibadəti barədə söhbət açmışdır. Biz isə öz növbəmizdə təkcə kitabın tərcüməsi ilə kifayətlənmədik, o cümlədən, kitabı orta səviyyəli bir şəkildə təhqiq etdik və bəzi mühüm olan məqamlara işıq tutmağa çalışdıq. Lakin kitabda müəllifin öz qeydləri də olduğuna görə, haşiyədə yazdığım qeydlərin sonunda ***(Tərcüməçi)*** – rəmzi ilə öz qeydlərimi müəllifin qeydlərindən fərqləndirdim ki, oxucu qeydlərdən hansının müəllifə və hansının da tərcüməçiyə aid olduğunu ayırd edə bilsin.

***Kitabın təhqiqi zamanı toxunduğum önəmli məsələlər:***

- Təravih namazının camaat şəklində qılınmasının bidət yox, sünnət olduğunun bəyanı.
- Gecə namazlarında Quranı müshəfdən oxumağın hökmü.
- Vitr namazının hökmü.
- Vitr namazında qunut duasını oxumağın hökmü və şəkli.
- Vitr namazından sonra qılınan iki rükətlik namazın hökmü və digər önəmli məsələlər.

Uca Allahdan bu işimizdə bizi haqqa və ixlasa yönəltməsini və bu əməlimizi Öz qatında məqbul olan saleh əməllərdən etməsini diləyirik!

# BİRİNCİ HİSSƏ

# Ramazan gecələrini ibadətlə keçirmək

## ❖ Ramazan gecələrini ibadətlə keçirməyin fəziləti:

• Bu barədə iki hədis varid olmuşdur:

***Birincisi:*** Əbu Hureyrədən (Allah ondan razı olsun!) belə dediyi rəvayət olunur: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) insanları Ramazan gecələrini ibadətlə keçirməyə ciddi bir şəkildə təşviq edər, lakin bunu onlara vacib buyurmazdı və belə deyərdi:* ***"Kim vəd edilən savabına inanaraq və onu Allahdan umaraq Ramazan gecələrini ibadətlə keçirərsə, onun keçmiş*** *(kiçik)* ***günahları bağışlanar"****.*
*Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəfat edənə qədər vəziyyət bu şəkildə davam etdi.*[1] *Daha sonra Əbu Bəkrin xilafəti ilə Ömərin (Allah hər ikisindən də razı olsun!) xilafətinin ilk illərinə qədər vəziyyət bu şəkildə davam etdi."*[2]

***İkincisi:*** Amr ibn Murra əl-Cühənidən (Allah ondan razı olsun!) belə dediyi rəvayət olunur: "Qudaə qəbiləsindən bir adam *Peyğəmbərin (sallallahu aleyhi və səlləm) yanına gələrək ona belə dedi: "Ey Allahın Elçisi! Əgər Allahdan başqa haqq bir ilahın olmadığına və sənin Allahın elçisi olduğuna şəhadət gətirsəm, gündə beş dəfə namaz qılıb, Ramazan orucunu tutsam və Ramazan gecələrini ibadətlə keçirsəm, malımın zəkatını versəm, bu barədə nə deyə bilərsən?" Peyğəmbər (sallallahu aleyhi və səlləm) cavabında belə dedi:* ***"Kim bu hal üzərə ölsə, şəhidlərdən və siddiqlərdən olar"****.*[3]

---

[1] Yəni insanlar Təravih namazını camaat şəklində deyil, fərdi şəkildə qılmağa davam etdilər.

[2] "Əl-İrva" 4/14, hədis: 906, "Səhih Əbi Davud" 1241.
Daha sonra Ömər Ramazan gecələrində Təravih namazı üçün insanları Übey ibn Kəbin (Allah hər ikisindən də razı olsun!) arxasında topladı. ***(Tərcüməçi)***

[3] İbn Xüzeymə və İbn Hibban özlərinin "əs-Səhih" əsərlərində səhih (etibarlı) sənədlə rəvayət etmişlər. Bu barədə İbn Xüzeymənin "əs-Səhih" əsərindəki (3/340, hədis: 2262) qeydlərimə və "Səhih ət-Tərğib" 1/419, hədis: 993-ə bax!

❖ **Qədr gecəsi və bu gecənin təyini:**

• Ramazan gecələrinin ən fəzilətlisi Qədr gecəsidir.
Bu barədə Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə demişdir: ***“Kim vəd edilən savabına inanaraq və onu Allahdan umaraq Qədr gecəsini ibadətlə keçirərsə, onun keçmiş** (kiçik) **günahları bağışlanar”**[4]

• Düzgün olan rəyə əsasən, Qədr gecəsi Ramazan ayının iyirmi yeddinci gecəsidir və hədislərin əksəriyyəti də məhz buna dəlalət edir. Həmin hədislərdən biri də Zirr ibn Hubeyşin (Allah ondan razı olsun!) rəvayət etdiyi bu hədisdir: *“Übey ibn Kəbə Abdullah ibn Məsudun (Allah hər ikisindən də razı olsun!) “Kim ilin bütün gecələrini ibadətlə keçirərsə, Qədr gecəsinə isabət etmiş olar” – sözünü çatdıranda, Übeyin cavab olaraq belə dediyini eşitdim: “Allah ona rəhmət etsin! O bu sözü ilə insanların (tək bir gecəyə bağlanaraq) arxayınlaşmamalarını qəsd etmişdir. Heç bir şəriki olmayan Allaha and olsun ki, həmin gecə Ramazan ayındadır. – Übey daima istisna edərək yəni, “inşəallah” deyərək and içərdi*[5]*. Allaha and olsun ki, o gecənin hansı gecə olduğunu çox gözəl bilirəm. O gecə Peyğəmbərin (sallallahu aleyhi və səlləm) bizə ibadətlə keçirməyimizi əmr etdiyi iyirmi yeddinci günün gecəsidir.*[6] *O gecənin əlaməti: səhəri günəşin şuasız, ağappaq doğmasıdır.”*[7]
Bu hədis Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sözü olaraq da rəvayət olunmuşdur.

---

[4] Buxari və Müslim, həmçinin Əhməd (5/318) rəvayət etmişdir.
[5] Yəni ehtiyat yönündən... Bu məsələdə isə Übey (Allah ondan razı olsun!) özünə o qədər əmin idi ki, hətta and içərkən istisna belə etməmişdi. ***(Tərcüməçi)***
[6] Yəni iyirmi altıncı gündən iyirmi yeddinci günə keçən gecə. ***(Tərcüməçi)***
[7] Hədisi Müslim və başqaları rəvayət etmişdir. Hədis “Səhih Əbi Davud” (1247) əsərində geniş bir şəkildə təxric edilmişdir.

## ❖ Gecə namazlarını camaatla qılmağın icazəli olması:[8]

• Ramazan gecələrində namazı camaat şəklində qılmaq nəinki icazəlidir, hətta tək qılınmasından daha əfzəldir. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) özü bu namazı camaat şəklində qılmış və camaat şəklində qılınmasının əfzəlliyini də sözlü olaraq ümmətinə bəyan etmişdir. Necə ki, Əbu Zərin (Allah ondan razı olsun!) rəvayət etdiyi hədisdə onun belə dediyi qeyd olunur: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə birlikdə Ramazan orucunu tutduq. Bütün ay boyunca, Ramazandan yeddi gecə qalanacan bizə heç bir gecə namazı qıldırmadı. Həmin gecə isə gecənin üçdəbir hissəsi keçənə qədər bizə namaz qıldırdı. Ramazandan altı gecə qaldıqda bizə namaz qıldırmadı. Ramazandan beş gecə qaldıqda, həmin gecəni gecənin yarısı keçənə qədər bizə namazı qıldırdı. Mən: "Ey Allahın elçisi! Bəlkə bu gecəni bütünlüklə bizə namaz qıldırasan?" – dedim. O (sallallahu aleyhi və səlləm) isə cavabında belə buyurdu:* ***"Bir kəs imam namazını tamamlayana qədər onunla birgə namaz qılarsa, bütün gecəni namaz qılmış kimi savab qazanar"****. Ramazandan dörd gecə qaldıqda bizə namaz qıldırmadı, üç gecə qaldıqda isə*[9] *öz ailəsini, yoldaşlarını və insanları topladı və bizə elə bir şəkildə namaz qıldırdı ki, fəlahı ötürəcəyimizdən qorxduq. (Hədisi Əbu Zərdən rəvayət edən ravi) dedi ki "Fəlah nədir?" – deyə soruşduqda, o da: "səhur yeməyidir" – dedi. Sonra ayın digər qalan gecələrini bizə namaz qıldırmadı."*[10]

---

[8] Ramazan ayından kənar digər vaxtlarda da adət halına gətirməmək şərti ilə gecə namazlarını camaat şəklində qılmaq olar. ***(Tərcüməçi)***

[9] Yəni Ramazanın iyirmi yeddinci gecəsi. Yuxarıda qeyd edildiyi kimi, daha doğru olan rəyə əsasən, Qədr gecəsi məhz həmin gecədir. Elə bu səbəbdən də Peyğəmbər (sallallahu aleyhi və səlləm) məhz həmin gecədə öz ailəsini, yoldaşlarını namaza çıxarmışdır. Həmçinin hədis qadınları həmin gecədə namaza çıxarmağın müstəhəb olduğuna dəlalət edir.

[10] Hədis səhihdir. Hədisi "sünən əhli" (yəni, Nəsai, Tirmizi, Əbu Davud, İbn Məcə) və digərləri rəvayət etmişdir. Bu hədis "Salətut-Təravih" (səh. 16-17), "Səhih Əbi Davud" (1245) və "əl-İrva" (447) əsərində geniş bir şəkildə təxric edilmişdir.

### ❖ Peyğəmbərin (sallallahu aleyhi və salləm) Ramazan gecələrində camaata namaz qıldırmağa davam etməməsinin səbəbi:

• Peyğəmbərin (sallallahu aleyhi və salləm) Ramazanın digər gecələrində əshabına namaz qıldırmamağının əsas səbəbi bu ayda gecə namazlarının onlara fərz qılınması və nəticədə də, buna güclərinin çata bilməməsi narahatçılığı idi. Necə ki, Buxari və Müslimin və digər hədis imamlarının Aişə anamızdan (Allah ondan razı olsun!) rəvayət etdikləri hədisdə məhz bu cür qeyd olunmuşdur.[11]

Lakin Uca Allahın öz dinini tamamlamasından sonra, Peyğəmbərin (sallallahu aleyhi və salləm) vəfatı ilə birlikdə bu narahatçılıq ortadan qalxdı. Beləcə, Ramazan gecələrində camaat namazının davamiyyətli bir şəkildə qılınmamasına səbəbiyyət təşkil edən əsas amil ortadan qalxdığına görə, əsli hökm – yəni bu namazı camaatla qılmanın icazəli olması hökmü öz yerində sabit qaldı. Elə bu səbəbdən də Buxarinin Səhihində və digər hədis qaynaqlarında qeyd edildiyi kimi, Ömər (Allah ondan razı olsun!) bu sünnəti yenidən dirçəltmişdir.[12]

---

[11] Bu barədə geniş məlumat üçün "Salətut-Təravih" (səh. 12-14) kitabına müraciət et!

[12] Həmin hədisin təxrici və İbn Əbdülbər kimi alimlərin o hədis ilə əlaqəli dedikləri sözlər üçün "Salətut-Təravih" (səh. 49-52) kitabına müraciət et!

***Önəmli Qeyd:*** Ramazan ayında hər gecə İşa namazından sonra camaat şəklində Təravih namazını qılmaq bəzilərinin iddia etdiyi kimi Ömərin ortaya çıxartdığı bir bidət (yenilik) yox, əksinə, Peyğəmbərimizin (sallallahu aleyhi və salləm), onun əshabının və əhli-beytinin sünnətidir. Bu namazı Allah Rəsulu (sallallahu aleyhi və salləm) öz zamanında bir neçə gün camaatla birgə qılmış və daha sonra camaatın sayının çoxluğunu görərək və müsəlmanlara fərz (vacib) olacağı qorxusu ilə camaatla qılmağı tərk etmişdir. Peyğəmbərin (sallallahu aleyhi və salləm) vəfatından, yəni vəhy kəsildikdən və dolayısı ilə artıq bu namazın fərz olma qorxusunun da aradan qalxmasından sonra, Ömər ibn Xəttab (Allah ondan razı olsun!) öz xilafətində yenidən bu sünnəti dirçəltmiş və insanları Ramazan gecələrində vahid bir imamın (səhabə Übey ibn Kəbin) arxasında toplamışdır. Onun vəfatından sonra da bu sünnət həm Osmanın, həm də Əlinin (Allah hər ikisindən də razı olsun!) xilafətləri dönəmində davam etdirilmiş və bu günəcən də qorunub saxlanılmışdır. Hal-hazırda bütün dünya müsəlmanları (şiələr istisna) bu sünnətə əməl etməkdə və Ramazan gecələrində məscidləri bu

## ❖ Təravih namazının camaat şəklində qılınmasının qadınlara icazəli olması:

• Yuxarıda qeyd etdiyimiz Əbu Zər hədisinə əsasən qadınların da bu namazda iştirak etmələri icazəlidir. Hətta qadınlar üçün kişilərə namaz qıldıran imamdan əlavə, ayrıca bir imamın təyin edilməsi də caizdir. Necə ki, Ömər (Allah ondan razı olsun!) Təravih namazında kişilər üçün Übey ibn Kəbi imam təyin edəndə qadınlar üçün də Süleyman ibn Əbi Həsməni imam təyin etmişdir.[13] Ərfəcə əs-Səqafidən belə dediyi rəvayət olunmuşdur: "Əli ibn Əbi Talib

---

ibadətlə bəzəməkdədirlər. Əli ibn Əbi Talib (Allah ondan razı olsun!) Ramazan gecələrində Kufə məscidlərinin yanından keçdikdə insanları camaat şəklində gecə namazı qılan görmüş və dua edərək belə demişdir: *"Ey Xəttabın oğlu! Sən məscidlərimizi Quran qiraəti ilə nurlandırdığın kimi, Allah da sənin qəbrini nurlandırsın!"* (Mərvəzi "Muxtasar Qiyamul-Leyl" səh. 217, Əcurri "əş-Şəriə" 1239) Onu da qeyd etmək yerinə düşər ki, şiə məzhəbinin ən etibarlı hədis qaynaqlarında belə Ramazanın gecə namazlarının (yəni Təravih namazının) camaat şəklində qılınmasına dair kifayət qədər hədis mövcuddur. Həmin rəvayətlərdən nümunə olaraq üçünü qeyd edirəm.

❍ "Peyğəmbər (sallallahu aleyhi və səlləm) Ramazan ayında nafilə namazlarını çoxaldardı. Gecənin ilk üçdə birindən sonra namaz qıldıqda, insanlar da onun arxasında namaza durardılar." (Kuleyni "əl-Kəfi" cild: 4, 6636-cı rəvayət. Məclisi "Kitab əl-Kəfi"yə yazdığı şərhində; "Miratul-Uqul" 16/378-də bu hədisin səhih olduğunu qeyd edir)

❍ "Peyğəmbər (sallallahu aleyhi və səlləm) Ramazan ayında gecənin ilk üçdə birindən sonra nafilə namazlarını çoxaldardı. İnsanlar da onun arxasında toplanar və onunla birgə namaz qılardılar. İnsanların sayı çoxaldıqda, onları tərk etdi və evinə girdi..." ("əl-İstibsar" 1/461 hədis: 1795, "Təhzib əl-Əhkam" 3/60 hədis: 205)

❍ Cəfər əs-Sadiq (Allah ona rəhmət etsin!) demişdir: *"Ramazan ayında öz ailənə fərz və nafilə namazlarını qıldır, çünki mən də belə edirəm (yəni Ramazan ayında ailəmlə birgə camaat şəklində qılıram)."* ("Təhzib əl-Əhkam" 3/267 və ya 294-cü hədis: 762) ➢

• Məclisi "Təhzib əl-Əhkam"a yazdığı şərhində – "Məlazul-Əxyar" 5/505-də bu rəvayətin etibarlı və səhih olduğunu qeyd edir və sonra rəvayətdəki *"problemi"* hiss etdiyindən dolayı əl-ayağa düşərək deyir: "Ola bilsin ki, hədisdə qeyd olunan *"Ramazan ayında öz ailənə nafilə namazlarını qıldır*" ibarəsi təqiyyə əsasında (yəni yalan üzərə) deyilmiş bir sözdür." ***(Tərcüməçi)***

[13] Əbdürrəzzaq "əl-Müsənnəf" 4/258, hədis: 8722

(Allah ondan razı olsun!) insanlara Ramazan ayında gecə namazlarını qılmağı əmr edər, kişilər və qadınlar üçün ayrı-ayrılıqda iki imam təyin edərdi. Qadınlar üçün təyin edilmiş imam mən idim.”[14]
Mənim fikrimcə, əgər məscid geniş olarsa və kişilərin imamının qiraəti ilə qadınların imamının qiraəti bir-birinə qarışmazsa, bu halda ayrı-ayrılıqda iki imamın təyini məqsədəuyğun olar, əks halda isə yox.[15]

### ❖ Gecə namazlarının rükət sayı:

• Gecə namazı on bir rükətdir. Biz Peyğəmbərə (sallallahu aleyhi və səlləm) tabe olmaqdan ötrü gecə namazlarının on bir rükətdən artıq qılınmaması rəyini daha mötəbər görürük. Çünki Allah Rəsulu (sallallahu aleyhi və səlləm) vəfat edənə qədər gecə namazlarını on bir rükətdən artıq qılmayıb. Aişə anamızdan (Allah ondan razı olsun!) Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Ramazan ayı boyunca qıldığı namazı barədə soruşulduqda o belə cavab vermişdir: *“Peyğəmbər (sallallahu aleyhi və səlləm) nə Ramazanda, nə də Ramazandan kənar digər aylarda on bir rükətdən artıq namaz qılmazdı. İlk öncə dörd rükət qılardı ki, həmin rükətlərin gözəlliyi və uzunluğu barədə heç soruşma! Sonra yenə dörd rükət qılardı ki, həmin rükətlərin də gözəlliyi və uzunluğu barədə heç soruşma! Daha sonra üç rükət qılardı.”*[16]

• Gecə namazını on bir rükətdən az da qıla bilər. Hətta bir rükətlik vitr namazı ilə də kifayətlənə bilər. Bunun da dəlili Peyğəmbərin

---

[14] Beyhəqi “əs-Sünənul-kubra” 2/494, İbn Nasr “Qiyamu Ramazan” səh. 93
[15] Ola bilsin günümüzdə mikrofon sistemi olduğu üçün buna ehtiyac olmasın. Lakin, bununla yanaşı kişi və qadınlar üçün ayrılıqda iki imamın təyin edilməsində digər faydalar və məqsədlər də ola bilər. Misal üçün, qadınların kişilərə nisbətdə fiziki yöndən zəif olmalarını, onların içərisində hamilə və ya əliuşaqlı qadınların olduğunu nəzərə alaraq, onlar üçün namazı daha xəfif qıldıracaq imamın təyin edilməsi kimi. ***(Tərcüməçi)***
[16] Hədisi Buxari və Müslim, həmçinin digər hədis imamları rəvayət etmişdir. Bu hədis “Salətut-Təravih” (səh. 20-21) və “Səhih Əbi Davud” (1212) əsərlərində geniş bir şəkildə təxric edilmişdir.

(sallallahu aleyhi və səlləm) bu barədə dediyi sözü və əməlidir. Əməlinə misal olaraq Aişə anamızın (Allah ondan razı olsun!) rəvayətini qeyd etmək olar. Belə ki, ondan Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Vitr namazını neçə rükət qıldığı soruşulduqda, o belə cavab vermişdir: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Vitr namazını dörd və üç*[17]*, altı və üç, on və üç rükət olaraq qılardı. Yeddi rükətdən az və on üç rükətdən çox Vitr qılmazdı".*[18]

Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sözünə misal olaraq bu hədisi qeyd etmək olar: ***"Vitr haqdır. İstəyən onu beş rükət, istəyən üç rükət, istəyən bir rükət qılsın!"***[19]

---

[17] Yəni, 4 + 3 = 7 rükət. ***(Tərcüməçi)***

[18] Hədisi Əbu Davud, Əhməd və digərləri yaxşı sənədlə rəvayət etmişlər. Hədisi İraqi səhih hesab etmişdir. Hədis "Salətut-Təravih" (səh. 98-99) və "Səhih Əbi Davud" (1233) əsərlərində geniş bir şəkildə təxric edilmişdir.
Bu hədis bundan öncəki hədis ilə ziddiyyət təşkil etmir. Hədisdə qeyd olunan on üç (əslində isə on bir) rükətlik Vitr namazının (on birdən əlavə olan) iki rükəti İbn Həcərin də qeyd etdiyi kimi, ya İşa namazının son sünnətidir, ya da ki, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) gecə namazından qabaq qıldığı iki rükətlik namazdır. Bu barədə geniş məlumat üçün "Salətut-Təravih" (səh. 19-20) kitabına müraciət et!

[19] Hədisi Təhavi, Hakim və digər hədis imamları rəvayət etmişdir. Bir çox hədis imamının da qeyd etdiyi kimi, hədis səhih sənədli bir hədisdir. Bu məsələni "Salətut-Təravih" (səh. 99-100) kitabında açıqlamışam. ***(Şeyx Əlbani)***
***Qeyd:*** Bundan öncəki hədisdə qeyd olunan "*Yeddi rükətdən az Vitr qılmazdı"* ibarəsi nə bu hədislə təzad təşkil etməz, nə də ki, Vitrin yeddi rükətdən az qılınmasının icazəli olmamasına dəlalət etməz. Çünki yuxarıda qeyd olunan birinci hədis Peyğəmbərin (sallallahu aleyhi və səlləm) əməlindən bəhs edir. Yəni Allah Rəsulu (sallallahu aleyhi və səlləm) şəxsən özü Vitr namazını adətən yeddi rükətdən az qılmazdı. İkinci hədis isə özündə Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ümmətinə xitabını və tövsiyəsini ehtiva edir. ***(Tərcüməçi)***

### ❖ Gecə namazlarında Quran qiraəti:[20]

• Peyğəmbər (sallallahu aleyhi və səlləm) istər Ramazan ayınının və istərsə də digər ayların gecə namazlarında Quran qiraəti üçün nə az, nə də ki çox heç bir hədd təyin etməmişdir. Əksinə, onun qiraəti uzunluq və qısalığına görə fərqlilik ərz edərdi. Bəzən hər rükətdə Müzzəmmil surəsi qədər Quran oxuyardı ki, bu surə də iyirmi ayədir. Bəzən isə əlli ayə civarında Quran oxuyardı. O (sallallahu aleyhi və səlləm) belə deyərdi: ***"Kim bir gecədə yüz ayə oxuyarsa, Allah qatında qafillərdən yazılmaz".***

Başqa bir hədisdə isə belə deyilir: ***"Kim bir gecədə iki yüz ayə oxuyarsa, Allah qatında itaətkar, ixlaslı qullardan yazılar".***

Bir dəfə o (sallallahu aleyhi və səlləm), gecə namazlarının birində xəstə olduğu halda Quranın yeddi böyük surəsini oxumuşdur. Həmin surələr: Əl-Bəqərə, Əli İmran, ən-Nisə, əl-Məidə, əl-Ənam, əl-Əraf və ət-Tövbə surələridir.

Hüzeyfə ibn Yəmənin (Allah ondan razı olsun!) Peyğəmbərin (sallallahu aleyhi və səlləm) arxasında namaz qıldığı o məşhur hadisədə bir rükətdə Əl-Bəqərə, ən-Nisə və Əli İmran surələrini oxumuşdur. O (sallallahu aleyhi və səlləm), Quranı tələsmədən, asta-asta oxuyardı.[21]

Ən səhih sənədlə nəql olunduğuna görə, Ömər Übey ibn Kəbə (Allah hər ikisindən də razı olsun!) Ramazan ayında insanlara Təravih

---

[20] ***Gecə namazlarında Quranı müshəfdən (yəni Quran kitabından) oxumağın hökmü:*** Bu məsələdə doğru olan rəy budur ki, gecə namazlarında Quranı müshəfdən oxumaq icazəlidir və bunun əksinə olan rəy isə zəifdir. Bu barədə imam Əhmədə sual verilmiş, o isə cavabında belə demişdir: "Müshəfdən oxuyaraq camaata gecə namazı qıldırmağın heç bir eybi yoxdur". ("Əl-Muğni" 2/280) Buxari müəlləq *(yəni sənədini qeyd etmədən)*, İbn Əbi Şeybə isə müsnəd *(yəni sənədini qeyd edərək)* olaraq, səhih sənədlə rəvayət etmişdir ki, Aişə anamızın köləsi Zəkvan ona imamlıq edərkən Quranı müshəfdən oxuyardı. (Buxari 1/140, İbn Həcər "Təğliqut-Təliq" 2/291) Həmçinin tabiinlərdən imam Zühri bu barədə belə demişdir: "Müsəlmanlar İslamın ilk günlərindən ta bu günəcən davamiyyətli bir şəkildə bunu edirlər". Başqa bir rəvayətdə isə belə demişdir: "Bizim ən seçkinlərimiz gecə namazlarında Quranı müshəfdən oxuyardılar". (İbn Nasr "Müxtəsər qiyamul-leyl" səh. 233) ***(Tərcüməçi)***

[21] Bu hədislərin hamısı "Sifətus-saləh" (səh. 117-122) kitabında geniş bir şəkildə təxric edilmişdir.

namazını on bir rükət qıldırmağı əmr etdikdə, Übey hər rükətdə iki yüz ayə oxuyardı. Hətta arxasında namaz qılanlar qiyamın uzunluğuna görə əsalara söykənərdilər və yalnız sübhün ilk vaxtlarında[22] namazı bitirərdilər.[23]

Yenə səhih sənədlə nəql olunduğuna görə, Ömər (Allah ondan razı olsun!) Ramazan ayında Quran qarilərini yanına çağırar və qiraəti daha sürətli olana hər rükətdə otuz ayə, qiraəti orta olana iyirmi beş və qiraəti daha asta olan qariyə isə hər rükətdə iyirmi ayə oxumasını tapşırardı.[24]

Bütün bunlara əsasən, əgər namaz qılan kəs təkbaşına qılırsa, qiraətini istədiyi qədər uzun edə bilər. Həmçinin çox oxumasına razılıq verən camaatla birlikdə də qiraətini uzun tuta bilər. Əslində, namaz qiraətini nə qədər uzun etsə, bir o qədər yaxşıdır. Lakin uzunçuluqda da gərək həddini aşmasın və nadir hallar istisna olmaqla gərək bütün gecəni ibadətə həsr etməsin və beləcə ***"ən xeyirli yol Muhəmmədin yoludur"*** [25] – deyən Peyğəmbərə (sallallahu aleyhi və səlləm) tabe olsun.

Əgər bir kəs namazda imam durarsa, arxasında namaz qılanlara əziyyət verməyəcək şəkildə qiraətini uzada bilər. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə demişdir: ***"Sizlərdən bir kəs insanlara namaz qıldırdığı təqdirdə namazını çox uzatmasın. Çünki camaatın içərisində qocalar, uşaqlar, xəstələr, fiziki yöndən zəif və ehtiyac sahibi olan insanlar var. Təkbaşına namaz qılan kəs isə namazını istədiyi qədər uzada bilər".*** [26]

---

[22] Yəni Sübh namazına az bir vaxt qalmış. ***(Tərcüməçi)***

[23] Məlik rəvayət etmişdir. "Salətut-Təravih" (səh. 52) kitabına bax!

[24] Əbdürrəzzaq "əl-Müsənnəf" 4/261, hədis: 7731 və Beyhəqi "Sünənul-kubra" 2/497. Hədisin geniş təxrici üçün "Salətut-Təravih" (səh.71) kitabına bax!

[25] Bu, Müslim və Nəsainin rəvayət etdikləri hədisin bir hissəsidir. Hədis "Əhkəmul-cənaiz" (səh. 18) və "əl-İrva" (608) əsərlərində təxric edilmişdir.

[26] Hədisi Buxari və Müslim rəvayət etmişdir. Hədis "əl-İrva" (512) və "Səhih Əbi Davud" (759-760) əsərlərində geniş bir şəkildə təxric edilmişdir.

❖ **Gecə namazının vaxtı:**

• Gecə namazının vaxtı İşa namazından sonra başlayır, Fəcr namazına qədər davam edir. Bu barədə Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə demişdir: ***“Uca Allah sizlər üçün bir namaz da əlavə etmişdir ki, o da Vitr namazıdır.[27] Onu İşa namazı ilə Fəcr namazı arasında qılın!”***[28]

• Gücü çatan kəsin gecə namazını gecənin son vaxtlarında (yəni son üçdəbirində) qılması daha əfzəldir. Bu barədə Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə demişdir: ***“Kim gecənin son vaxtında namaza dura bilməyəcəyindən ehtiyat etsə, o zaman Vitri gecənin əvvəlində qılsın. Gecənin axırında dura biləcəyinə əmin olan kəs isə, Vitri gecənin son vaxtında qılsın. Çünki gecənin son vaxtında qılınan namazlarda mələklər də iştirak edirlər. Bu isə daha əfzəldir.”***[29]

• Əgər gecə namazını gecənin əvvəlində camaatla birgə qılmaq ilə gecənin son vaxtlarında tək qılmaq arasında bir seçim halı yaransa, o zaman namazın camaatla birgə gecənin əvvəlində qılınması daha əfzəldir. Çünki belə bir vəziyyətdə o bütün gecəni ibadət etmiş

---

[27] Gecə namazlarının hamısı Vitr adlanır. Çünki gecə namazlarının rükət sayı vitrdir, yəni təkdir.

[28] Əhmədin və digər hədis imamlarının Əbu Basradan (Allah ondan razı olsun!) rəvayət etdikləri səhih hədisdir. Hədis “əs-Silsilə əs-səhihə” (108) və “əl-İrva” (2/158) əsərlərində təxric edilmişdir.

***Qeyd:*** Vitr namazının hökmü barədə alimlər ixtilaf etmişlər. Alimlərin əksəriyyəti onu müstəhəb (yəni bəyənilən, lakin vacib olamayan) saymış, digər qismi isə yuxarıda qeyd olunan hədisə və digər dəlillərə əsasən vacib görmüşlər. İmam İbn Teymiyyə (Allah ona rəhmət etsin!) isə bu məsələdə orta bir yol tutmuş və belə demişdir: “Vitr namazı əsli etibarı ilə vacib olmayan sünnət namazlarındandır. Onu qılmayan kəs buna görə heç bir günah qazanmaz, amma böyük əcrdən məhrum olar. Lakin gecə namazına qalxan kəs üçün Vitri qılmaq (yəni, qıldığı gecə namazını vitr – tək rükətlə bitirməsi) vacibdir”. (Bax: “Əl-Fətəva əl-Kubra” 5/343) ***(Tərcüməçi)***

[29] Müslim rəvayət etmişdir. Hədis “əs-Silsilə əs-səhihə” (2610) əsərində təxric edilmişdir.

kimi savab əldə edir. Bu barədə yuxarıda Peyğəmbərin (sallallahu aleyhi və səlləm) hədisi qeyd olunmuşdur. Həmçinin Ömərin xilafəti dönəmində də səhabələr (Allah onlardan razı olsun!) məhz bu cür davranmışlar. Belə ki, bu barədə Əbdürrəhman ibn Əbd əl-Qari belə demişdir: "Ramazan ayında bir gecə Ömər ibn Xəttab ilə birlikdə məscidə getdim. Məscidə çatdıqda nə görsək yaxşıdır?! İnsanlar ayrı-ayrı dəstələr şəklində namaz qılırdı. Kimisi tək başına, kimisi isə bir neçə nəfərlə namaza durmuşdu. Onların bu halını görən Ömər (Allah ondan razı olsun!) belə dedi: "Düşünürəm ki, bu insanları bir imamın arxasında toplasam daha yaxşı olar." Daha sonra Ömər bu haqda qəti qərarını verdi və Übey ibn Kəbi (Allah onlardan razı olsun!) onlara imam təyin etdi. Başqa bir gecə Ömər ibn Xəttab ilə birlikdə məscidə getdikdə, orada insanları tək bir imamın arxasında namaz qılan gördük. Bu halı görən Ömər (Allah ondan razı olsun!) belə dedi: "Bu nə gözəl bir yenilikdir![30] Gecənin əvvəlində bu namazı (camaat şəklində) qılanlar, gecənin son vaxtında (təkbaşına) qılanlardan daha əfzəldirlər." Belə ki, onun zamanında insanlar bu namazı gecənin ilk vaxtlarında qılırdılar".[31]

---

[30] ***Önəmli qeyd:*** Bəziləri Ömər ibn Xəttabın bu sözünü əsas tutaraq dində gözəl bidətlərin ola biləcəyini iddia etmişlər. Cavab olaraq deyirik: Burada Ömərin (Allah ondan razı olsun!) sözü şəri yox, məhz lüğəvi mənada deyilmiş bir sözdür. Çünki, şəri mənada bidət – *"dində əsli olmayıb, sonradan ortaya çıxarılan və din adına uydurulan hər bir şeydir".* Təravih namazının camaat şəklində qılınması isə dində əsli olan, Peyğəmbər (sallallahu aleyhi və səlləm) tərəfindən camaata qıldırılan və tövsiyə edilən bir ibadətdir. Bu barədə Əbu Yusuf müəllimi Əbu Hənifəyə (Allah rəhmət etsin!) sual vermiş, o isə cavabında belə demişdir: "Təravih namazının camaat şəklində qılınması təkid edilmiş bir sünnətdir. Ömər ibn Xəttab bunu özündən uydurmamış, bunu camaata əmr etməsi ilə də bidətçi olmamışdır. O bunu sahib olduğu hər hansısa bir şəriət dəlilinə əsasən etmişdir". (İbn Abidin "Raddul-Muhtar" 2/493) ***(Tərcüməçi)***

[31] Buxari rəvayət etmişdir. Hədis "Salətut-Təravih" (48) əsərində təxric edilmişdir.

Zeyd ibn Vəhb demişdir: "Abdullah ibn Məsud (Allah ondan razı olsun!) Ramazan ayında bizə namaz qıldırar və namazı gecə vaxtı tamamlayıb, ayrılardı".[32]

## ❖ Gecə namazının qılınma şəkli:

• Bu məsələni "Salətut-Təravih" (səh. 101-115) adlı kitabımızda geniş bir şəkildə izah etmişik. Oxucu üçün bir asanlıq və xatırlatma olması baxımından həmin mövzunu burada da müxtəsər bir şəkildə qeyd etməyi məqsədəuyğun bildim.

***Birinci forma:*** On üç rükətdən ibarətdir və xəfif iki rükətlə başlanılır. Bu iki rükət isə öncəki səhifələrdə də qeyd etdiyimiz kimi, ya İşa namazının son sünnətidir, ya da ki, gecə namazlarından qabaq qılınan məxsusi iki rükətlik namazdır. Bu iki rükətdən sonra gecə namazına başlanılır və son dərəcə uzun olan iki rükət qılınır. Sonra yenə iki rükət qılınır. Daha sonra iki rükət olmaqla üç dəfə namaz qılınır və sonda bir rükət ilə gecə namazı tamamlanır.[33]

***İkinci forma:*** Ümumən on üç rükət namaz qılır. Onun ilk səkkiz rükətini hər iki rükət arasında salam verərək qılır. Daha sonra beş rükətlik Vitri tək bir salamla qılır və rükətlər arasında nə oturmur, nə də salam vermir.[34]

***Üçüncü forma:*** On bir rükətdən ibarətdir. Hər iki rükət arasında salam verilir və sonda bir rükətlik Vitr ilə namaz tamamlanır.[35]

***Dördüncü forma:*** On bir rükətdən ibarətdir. Onun dörd rükəti bir salamla qılınır. Sonra yenə dörd rükəti bir salamla qılınır və üç

---

[32] Əbdürrəzzaq "əl-Müsənnəf" (7741). Rəvayətin sənədi səhihdir. İmam Əhmədə sual verilir: "Təravih namazı gecənin son vaxtına qədər gecikdirilə bilərmi?" İmam cavabında: "Xeyr, müsəlmanların adəti mənə daha sevimlidir", – deyərək, yuxarıda qeyd olunan bu iki rəvayəti misal göstərir. (Əbu Davud "əl-Məsəil" səh. 62)

[33] Yəni xəfif 2 rükət + uzun 2 rükət + 2 + 2 + 2 + 2 + 1 = 13 rükət. ***(Tərcüməçi)***

[34] Yəni 2 + 2 + 2 + 2 + 5 = 13 rükət. ***(Tərcüməçi)***

[35] Yəni 2 + 2 + 2 + 2 + 2 + 1 = 11 rükət. ***(Tərcüməçi)***

rükətlik Vitr ilə namaz tamamlanır.[36] Həmin dörd rükətlər və ya üç rükətlik Vitr qılınanda ikinci rükətdə təşəhhüdə oturulmalıdır yoxsa yox – bu barədə qaneedici dolğun bir cavab tapa bilmədim. Lakin onu dəqiq deyə bilərəm ki, üç rükətlik Vitr qılınanda ikinci rükətdə oturmaq icazəli deyil.

***Beşinci forma:*** Ümumən on bir rükət namaz qılır. Onun ilk səkkiz rükətini təşəhhüdə oturmadan birbaşa qılır, səkkizinci rükətdə təşəhhüdə oturaraq təşəhhüd duasını oxuyur, Peyğəmbərə (sallallahu aleyhi və səlləm) salavat deyir, sonra salam vermədən doqquzuncu rükətə qalxır və doqquzuncu rükətin sonunda salam verərək namazdan çıxır. Daha sonra oturaq halda iki rükət qılır.[37]

***Altıncı forma:*** Doqquz rükət namaz qılır. Onun altı rükətini təşəhhüdə oturmadan birbaşa qılır, altıncı rükətdə təşəhhüdə oturaraq təşəhhüd duasını oxuyur, Peyğəmbərə (sallallahu aleyhi və səlləm) salavat deyir, sonra isə beşinci formada qeyd edilən şəkildə davam edir.[38]

Gecə namazının qılınma şəkli ilə əlaqəli Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) əməli olaraq sabit olan məhz bu formalardır. Bunlara başqa növləri də əlavə etmək olar. Misal üçün, yuxarıda qeyd edilən hər növdən istənilən sayda rükət azaldaraq gecə namazını bir rükətə qədər endirmək olar ki, bununla da Peyğəmbərin (sallallahu aleyhi və səlləm) bu sözünə əməl edilmiş olar: ***"İstəyən kəs Vitr namazını beş rükət, istəyən üç rükət, istəyən də bir rükət qılsın!"***[39]

---

[36] Yəni 4 + 4 + 3 = 11 rükət. ***(Tərcüməçi)***

[37] Yəni 9 (yalnız səkkizinci rükətdə təşəhhüdə oturulur) + 2 (oturaq halda qılınır) = 11 rükət. Nafilə namazları (ələlxüsus gecə namazlarını) oturaq vəziyyətdə qılmaq olar. Çünki qiyam (yəni namazı ayaq üstə qılmaq) yalnız fərz namazları üçün rükndür. Gücü çatana oturub qıldığı nafilə namazına görə ayaq üstə qılınan namazın savabının yarısı yazılır. ***(Tərcüməçi)***

[38] Yəni 7 (yalnız altıncı rükətdə təşəhhüdə oturulur) + 2 (oturaq halda qılınır) = 9 rükət. ***(Tərcüməçi)***

[39] Hədisi Təhavi, Hakim və digər hədis imamları rəvayət etmişdir. Bir çox hədis imamının da qeyd etdiyi kimi, hədis səhih sənədli bir hədisdir. Bu məsələni "Salətut-Təravih" (səh. 99-100) kitabında açıqlamışam.

İstəyən kəs yuxarıda ikinci formada qeyd edildiyi kimi, bu üç və ya beş rükətli gecə namazını tək oturuşla və bir salamla qıla bilər, istəyən isə, üçüncü formada qeyd edildiyi kimi, ikinci rükətdən sonra salam verərək qıla bilər ki, ən əfzəl olan forma da məhz elə budur. Lakin beş və ya üç rükətli gecə namazını hər iki rükətdən bir təşəhhüdə oturaraq, salam vermədən qılmağa gəldikdə isə, bu barədə Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) varid olan hər hansısa bir hədisin şahidi olmadıq. Əsli etibarı ilə bu cür etmək icazəlidir. Lakin Peyğəmbər (sallallahu aleyhi və səlləm) Vitr namazını arada salam vermədən üç rükət qılmağı qadağan etmiş və bunun səbəbini belə açıqlamışdır: ***“Vitr namazını Məğrib namazına bənzətməyin”.***[40] Buna görə Vitr namazını üç rükət qılan kəs bu bənzərlikdən uzaq durması üçün üç rükətli Vitri iki formadan biri ilə qılmalıdır:

- İkinci rükətdən sonra salam verib, üçüncü rükəti tək qılmaq. Ən güclü və əfzəl olan məhz budur.
- İkinci rükətin sonunda təşəhhüd üçün oturmamaq, namazı bir salamla qılmaq. Ən doğrusunu bilən Uca Allahdır.

### ❖ Vitr namazının üç rükətində Quran qiraəti:

• Birinci rükətdə (əl-Fatihə surəsindən sonra) əl-Əla, ikinci rükətdə əl-Kəfirun, üçüncü rükətdə isə əl-İxlas surələrini oxumaq sünnətdəndir. Bəzən əl-İxlas surəsi ilə birlikdə əl-Fələq və ən-Nəs surələri də oxunar. Həmçinin Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) etibarlı sənədlə varid olmuşdur ki, bir dəfə o, Vitr namazının bir rükətində ən-Nisə surəsindən yüz ayə oxumuşdur.[41]

---

[40] Hədisi Təhavi, Dəraqutni və digər hədis imamları rəvayət etmişdir. “Salətut-Təravih” (səh. 99 və 110) kitabına bax!

[41] Nəsai və Əhməd səhih sənədlə rəvayət etmişdir.

## ❖ Qunut duası:[42]

• Bəzən qiraətdən sonra və rukudan qabaq Peyğəmbərin (sallallahu aleyhi və səlləm) nəvəsi Həsən ibn Əliyə (Allah ondan razı olsun!) öyrətdiyi qunut duası oxunar. Həmin dua belədir:

"اللَّهُمَّ اهْدِنِي فِيمَنْ هَدَيْتَ، وَعَافِنِي فِيمَنْ عَافَيْتَ، وَتَوَلَّنِي فِيمَنْ تَوَلَّيْتَ، وَبَارِكْ لِي فِيمَا أَعْطَيْتَ، وَقِنِي شَرَّ مَا قَضَيْتَ، فَإِنَّكَ تَقْضِي وَلا يُقْضَى عَلَيْكَ, وَ إِنَّهُ لا يَذِلُّ مَنْ وَالَيْتَ, وَلا يَعِزُّ مَنْ عَادَيْتَ, تَبَارَكْتَ رَبَّنَا وَتَعَالَيْتَ, لا مَنْجَا مِنْكَ إِلا إِلَيْكَ"[43]

Tərcüməsi: ***"Allahım! Hidayət verdiyin kəslər arasında mənə də hidayət ver! Salamatlıq bəxş etdiyin kəslər arasında mənə də***

---

[42] Vitr namazında qunut duasını oxumağın hökmü barədə İbn Teymiyyə (Allah ona rəhmət etsin!) demişdir: "Vitrin qunutu barədə alimlərin üç rəyi var. Bəzi alimlər Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Vitr namazında heç vaxt qunut duasını oxumadığını əsas alaraq, qunut duasını müstəhəb görməyiblər. Digər alimlər isə bunun tam əksinə, bütün il boyunca Vitr namazında qunut duasını oxumağı müstəhəb sayıblar və buna dəlil olaraq da Peyğəmbərin (sallallahu aleyhi və səlləm) nəvəsi Həsənə (Allah ondan razı olsun!) Vitr namazında oxuması üçün qunut duasını öyrətməsi hədisini əsas götürüblər. Bu rəy səhabə İbn Məsuddan (Allah ondan razı olsun!) və digərlərindən rəvayət olunmuşdur. Üçüncü qism alimlər isə Vitr namazında qunut duasınının məhz Ramazanın ikinci yarısından sonrakı gecələrdə oxunmasını müstəhəb saymışlar. Necə ki, Übey ibn Kəb (Allah ondan razı olsun!) belə edərdi. İşin həqiqəti budur ki, əslində, Vitrin qunutu namazda oxunması icazəli olan dua növlərindəndir – istəyən oxuyar, istəyən isə tərk edər və oxumaz... Xülasə, kim yalnız Ramazan ayında qunut duasını oxuyarsa, gözəl bir iş etmiş olar. Kim Ramazanın ikinci yarısından sonrakı gecələrdə oxuyarsa, o da gözəl bir iş etmiş olar. İlin heç bir vaxtında oxumayan kəs də gözəl bir iş etmiş olar." ("Məcmuul-Fətəva" 22/271, müxtəsər şəkildə nəql etdim). Burada İbn Teymiyyənin sözünün mənası budur ki, bu məsələdə alimlər arasında olan ixtilaf ziddiyyətli yox, növlü ixtilafdır. Həmçinin qunut duasında əlləri qaldırmaq və imamın duasına camaatın "amin" deməsi də müstəhəbdir. Bu barədə səhabə və tabiinlərdən çoxsaylı əsərlər nəql olunmuşdur. (Bax: Beyhəqi "əs-Sünənul-kubra", "babu rafil-yədeyni fil-qunut", Nəvəvi "əl-Məcmu" 3/332, İbn Rəcəb "Fəthul-Bəri" 6/424, İbn Qudamə "əl-Muğni" 2/584) ***(Tərcüməçi)***

[43] ***Oxunuş forması:*** [Allahumməhdini fimən hədeytə, və afini fimən afeytə, və təvəlləni fimən təvəlleytə, və bərik li fi mə ateytə, və qıni şərra mə qadeytə, fəinnəkə təqdi və lə yuqda aleykə, və innəhu lə yəzillu mən vəleytə, və lə yəizzu mən ateytə, təbəraktə Rabbənə və təaleytə, lə məncə minkə illə ileykə]

***salamatlıq bəxş et! Dost tutduğun kəslər arasında məni də Özünə dost qəbul et! Mənə əta etdiklərini bərəkətləndir! Qərar verdiyin şeylərin şərindən məni qoru! Hər şeyə hökm verən Sənsən, Sənə qarşı hökm verilməz. Dost tutduğun kimsə heç vaxt zəlil olmaz. Düşmənçilik etdiyin kəs isə heç vaxt izzətli ola bilməz. Ey Rəbbimiz! Sən xeyirxah və ucasan! Səndən*** *(yəni, əzabından, qəzəbindən)* ***elə yalnız Sənə*** *(yəni, rəhmətinə, məğfirətinə)* ***sığınılar".***[44]
Aşağıda qeyd edildiyi kimi, bəzən bu dua ilə birlikdə Peyğəmbərə (sallallahu aleyhi və səlləm) salavat da oxuna bilər.[45]

• Qunut duasını rukudan sonra oxumaq da olar. Həmçinin yuxarıda qeyd edilən dua ilə birlikdə Peyğəmbərə (sallallahu aleyhi və səlləm) salavat oxunmasında və əlavə olaraq Ramazanın ikinci yarısından sonrakı gecələrdə kafirlərə bəddua, müsəlmanlar üçün isə xoş dualar edilməsində heç bir problem yoxdur. Çünki bütün bunların hamısı Ömərin (Allah ondan razı olsun!) xilafəti dönəmində insanlara namaz qıldıran imamlardan varid olmuşdur. Belə ki, yuxarıda qeyd edilən Əbdürrəhman ibn Əbd əl-Qarinin rəvayətinin sonunda bu cür deyilir: "İmamlar Ramazanın ikinci yarısında kafirlərə bəddua edərək belə deyirdilər: "Allahım! Sənin haqq yoluna mane olan, peyğəmbərlərini təkzib edən və vədinə iman etməyən kafirləri öldür! Onların vəhdətini poz, qəlblərinə qorxu sal və üzərlərinə əzab göndər! Ey haqq olan İlah!" Daha sonra Peyğəmbərə (sallallahu aleyhi və səlləm) salavat oxuyar və gücləri çatan qədər müsəlmanlar üçün xoş dualar edər və sonra Allahdan mömin qulların bağışlanmasını diləyərdilər."
O,[46] sözünün davamında belə dedi: "O (yəni Ömər), kafirlərə bəddua edəndən, Peyğəmbərə (sallallahu aleyhi və səlləm) salavat

---

[44] Hədisi Əbu Davud, Nəsai və digər imamlar səhih sənədlə rəvayət etmişdir. "Sifətus-saləh" (səh. 95-96) kitabına bax!
[45] Bu barədə geniş məlumat üçün "Fadlus-saləh alən-Nəbiy" (səh. 33) və "Təlxisu sifəti salətin-Nəbiy" (səh. 45) kitablarına müraciət et!
[46] Yəni Əbdürrəhman ibn Əbd əl-Qari. ***(Tərcüməçi)***

oxuyandan, mömin kişi və qadınlar üçün Allahdan bağışlanma diləyəndən sonra bu cür dua edərdi:

"اللَّهُمَّ إِيَّاكَ نَعْبُدُ، وَلَكَ نُصَلِّي وَنَسْجُدُ، وَإِلَيْكَ نَسْعَى وَنَحْفِدُ، وَنَرْجُو رَحْمَتَكَ رَبَّنَا، وَنَخَافُ عَذَابَكَ الْجِدَّ، إِنَّ عَذَابَكَ لِمَنْ عَادَيْتَ مُلْحِقٌ"[47]

Tərcüməsi: Allahım! Biz yalnız Sənə ibadət edirik! Sənin üçün namaz qılır və Sənə səcdə edirik. Sənə doğru can atır və qulluq etməyə tələsirik. Ey Rəbbimiz! Sənin rəhmətini diləyir və əzabından qorxuruq. Həqiqətən də, Sənin əzabın dilədiyin kəsə yetişəcəkdir.

Bu duadan sonra təkbir gətirərək səcdəyə qapanardı."[48]

### ❖ Vitr namazının sonunda oxunan dua:

• Vitr namazının sonunda salamlardan əvvəl və ya sonra bu duanı oxumaq Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnətindəndir:

"اللَّهُمَّ إِنِّي أَعُوذُ بِرِضَاكَ مِنْ سَخَطِكَ، وَبِمُعَافَاتِكَ مِنْ عُقُوبَتِكَ، وَأَعُوذُ بِكَ مِنْكَ، لا أُحْصِي ثَنَاءً عَلَيْكَ، أَنْتَ كَمَا أَثْنَيْتَ عَلَى نَفْسِكَ"[49]

Tərcüməsi: ***"Allahım! Sənin qəzəbindən razılığına, cəzalandırmağından əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni layiqincə tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!"***[50]

• Vitr namazında salam verdikdən sonra üç dəfə bu dua oxunar:

"سُبْحَانَ الْمَلِكِ الْقُدُّوسِ"[51]

Tərcüməsi: ***"Müqəddəs Hökmdar pak və nöqsansızdır!"***

---

[47] ***Oxunuş forması:*** [Allahummə iyyəkə nəbudu, və ləkə nusalli və nəscudu, və ileykə nəsa və nəhfidu, nərcu rahmətəkə Rabbənə, və nəxafu azəbəkəl-ciddə, innə azəbəkə limən ədeytə mulhiq]

[48] İbn Xüzeymə 2/155-156, hədis: 1100.

[49] ***Oxunuş forması:*** [Allahummə inni əuzu biridakə min səxatikə, və bimuəfətikə min uqubətikə, və əuzu bikə minkə, lə uhsi sənaən aleykə, əntə kəmə əsneytə alə nəfsikə]

[50] "Səhih Əbi Davud" hədis: 1282, "əl-İrva" hədis: 430.

[51] ***Oxunuş forması:*** [Subhanəl-Məlikil-Quddus]

Üçüncüdə səsini uzadaraq yüksəldər.[52]

### ❖ Vitr namazından sonra iki rükət namaz qılmaq:

• Vitr namazından sonra iki rükət namaz qıla bilər. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) özü də Vitrdən sonra iki rükət namaz qılıb, hətta ümmətinə bu namazı əmr edərək belə buyurub: ***"Həqiqətən də, bu səfər çox çətin və ağır bir səfərdir. Sizlərdən kimsə Vitr namazını qılsa, ardınca iki rükət də qılsın. Əgər gecə namazına qalxa bilməsə, bu qıldığı iki rükət onu əvəz edər."***[53]

---

[52] "Səhih Əbi Davud" hədis: 1284.

[53] Hədisi İbn Xüzeymə, Dəraqutni və digər hədis imamları rəvayət ediblər. "əs-Silsilə əs-Səhihə" əsərində bu hədis geniş bir şəkildə təxric edilmişdir. Uzun müddət Vitrdən sonra qılınan bu iki rükət barədə qərarsız idim. O zaman ki, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) bu əmrinə vaqif oldum, bu məsələdəki rəyimi həmən qətiləşdirdim və bildim ki, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ***"gecə namazlarınızın sonunu tək rükət edin!"*** – sözü bunun vacib yox, ixtiyari olmasına dəlalət edir. Həmçinin bu, İbn Nasrın da rəyidir. Bax: "Qiyamu Ramazan" səh. 130. ***(Şeyx Əlbani)***

***Qeyd:*** Əksər fəqihlər Vitr namazından sonra iki rükət namaz qılmağı icazəli görmürlər və buna dəlil olaraq Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ***"gecə namazlarınızın sonunu tək rükət edin!"*** – sözünü dəlil gətirirlər. Lakin İbn Qeyyimin də dediyi kimi, bu hədis Vitrdən sonra iki rükət namaz qılınmasına dəlalət edən hədislərlə heç bir ziddiyyət təşkil etmir. Çünki Vitr namazı müstəqil bir ibadətdir və Məğrib namazından sonra iki rükət sünnət namazı qılındığı kimi Vitr namazından sonra da iki rükət namaz qılmaq sünnətdir. Yəni sanki bu iki rükətlik namaz Vitr namazının sünnəti və onun tamamlayıcısı sayılır. Deməli, qıldığı Vitr namazının sonunu tək rükətlə tamamlayan kəs Peyğəmbərin (sallallahu aleyhi və səlləm) ***"gecə namazlarınızın sonunu tək rükət edin!"*** – sözünə əməl etmiş, Vitrdən sonra iki rükət namaz qılması ilə də digər sünnəti həyata keçirmiş sayılır. Yuxarıda müəllifin qeyd etdiyi hədisə və digər əsərlərə əsasən Əvzai və Əhməd kimi hədis imamları bu namazı icazəli görmüşdür. İbn Teymiyyənin də dediyi kimi fəqihlərin əksəriyyətinin bu namazı icazəli görməməsinin səbəbi onların bunun icazəli olmasına dəlalət edən hədislərə vaqif olmamaları olmuşdur. (Bax: "Zədul-Məad" 1/321, Nəvəvi "Şərhu Müslim" 6/264, "Məcmuul-Fətava" 23/92-95) ***(Tərcüməçi)***

• Vitrdən sonra qılınan bu iki rükətlik namazda birinci rükətdə əz-Zəlzələ, ikinci rükətdə isə əl-Kəfirun surələrini oxumaq sünnətdir.[54]

[54] Bunu İbn Xüzeymə Aişə anamızdan  və Ənəsdən (Allah onlardan razı olsun!) bir-birlərini qüvvətləndirən iki sənədlə rəvayət etmişdir. Bax: “əs-Səhih” hədis: 1104-1105.

# İKİNCİ HİSSƏ

# ETİKAF

### ❖ Etikafın icazəli olması:[55]

• Ramazan ayında və ilin digər günlərində etikaf etmək sünnətdir. Bu ibadətin dəlili isə Uca Allahın bu kəlamıdır: ***"Məscidlərdə etikafda olduğunuz zaman..."***[56] Həmçinin Peyğəmbərin (sallallahu aleyhi və səlləm) və sələfin (səhabə və tabiinlərin) etikaf etmələri barədə çoxsaylı səhih hədislər varid olmuşdur. Sələfdən rəvayət olunmuş bu əsərlər İbn Əbi Şeybənin və Əbdürrəzzaqın "əl-Müsənnəf" əsərlərində zikr olunmuşdur.
Həmçinin rəvayət olunmuşdur ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) Şəvval ayının son on günündə etikaf etmişdir.[57]
Ömər (Allah ondan razı olsun!) Peyğəmbərə (sallallahu aleyhi və səlləm) xəbər verərək belə demişdir: *"Mən İslamdan qabaqki cahiliyyət zamanında Məscidül-Haramda bir gecəlik etikaf edəcəyimi nəzir etmişdim". Peyğəmbər (sallallahu aleyhi və səlləm) ona belə dedi:* ***"Nəzirini yerinə yetir və bir gecəlik etikaf et!"***[58]

• Daha çox tövsiyə olunan etikaf – Ramazan ayında edilən etikafdır. Çünki Əbu Hureyrənin (Allah ondan razı olsun!) rəvayət etdiyi hədisdə belə deyilir: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm)*

---

[55] Etikaf – Allaha ibadət qəsdi ilə məsciddə qalmaqdır. ***(Tərcüməçi)***
[56] Əl-Bəqərə: 187
[57] Bu, Aişə anamızın (Allah ondan razı olsun!) bu barədə rəvayət etdiyi hədisin bir hissəsidir. Belə ki, hədisi Buxari və Müslim, o cümlədən də İbn Xüzeymə öz "əs-Səhih" əsərlərində rəvayət etmişlər. Hədis "Səhih Əbi Davud" (2127) əsərində təxric edilmişdir.
[58] Hədisi Buxari, Müslim və İbn Xüzeymə rəvayət etmişlər. Hədisdəki ***"və bir gecəlik etikaf et!"*** əlavəsi Buxariyə məxsusdur. Hədis "Səhih Əbi Davud" (2136-2137) əsərində təxric edilmişdir.

*hər il Ramazan ayında on gün etikaf edərdi, vəfat etdiyi ilin Ramazan ayında isə iyirmi gün etikaf etdi".*[59]

• Etikafın ən əfzəli isə məhz Ramazanın son günlərində edilən etikafdır. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəfat edənə qədər Ramazanın son on günündə etikaf etmişdir.[60]

❖ **Etikafın şərtləri:**

• Məsciddən başqa bir yerdə etikaf edilməz. Çünki Uca Allah belə buyurur: ***"Məscidlərdə etikafda olduğunuz zaman onlarla (yoldaşlarınızla) yaxınlıq etməyin".***[61]
Aişə anamız (Allah ondan razı olsun!) belə demişdir: "Etikafın qaydası budur ki, gərək etikafda olan şəxs heç bir zəruriyyət olmadan məsciddən çölə çıxmasın, xəstə ziyarət etməsin, yoldaşına toxunmasın, onunla cinsi əlaqədə olmasın. İçində camaat namazı qılınmayan məsciddə etikaf etmək olmaz. Etikaf edən kəs barədə sünnət olan hökm isə onun oruc tutmasıdır".[62]

• Gərək içində etikaf edilən məscid cümə məscidi olsun ki, daha sonra Cümə namazını qılmaq üçün məsciddən çıxmağa məcbur olmasın. Çünki belə bir halda Cümə namazı üçün etikafda olduğu məsciddən çıxması qaçınılmazdır. Belə ki, Aişə anamızdan (Allah

---

[59] Hədisi Buxari və İbn Xüzeymə rəvayət etmişlər. Hədis "Səhih Əbi Davud" (2126-2130) əsərində təxric edilmişdir.
[60] Buxari, Müslim və İbn Xüzeymə (hədis: 2223) rəvayət etmişlər. Hədis "əl-İrva" (966) və "Səhih Əbi Davud" (2125) əsərlərində təxric edilmişdir.
[61] Əl-Bəqərə: 187
İmam Buxari də bu ayəni etikafın məscidlərə xas olduğuna dəlil olaraq zikr etmişdir. Bu barədə İbn Həcər belə deyir: "Əgər etikaf məscidlərdən başqa yerlərdə icazəli olsaydı, o zaman ayədə etikafda olan kəsin yoldaşı ilə yaxınlıq etməsinin qadağan olması məscidlərlə məhdudlaşdırılmazdı. Çünki bütün alimlərin ittifaqı ilə cinsi əlaqə etikafı pozur. Ayədə də məhz məscidlərin qeyd edilməsi ilə məlum olur ki, etikaf məsciddən başqa bir yerdə (məs. evdə) olunmaz".
[62] Beyhəqi səhih, Əbu Davud isə həsən sənədlə rəvayət etmişdir. Hədis "əl-İrva" (966) və "Səhih Əbi Davud" (2135) əsərlərində təxric edilmişdir.

ondan razı olsun!) rəvayət olunduğuna görə o belə demişdir: "İçində Cümə namazı qılınmayan məsciddə etikaf etmək olmaz".[63]
Daha sonra ayədə qeyd edilən məscidlərdən məqsədin məhz üç məscid, yəni Məscidul-Haram, Peyğəmbər məscidi və Məscidul-Əqsa olduğuna dəlalət edən, mənası tam açıq və səhih bir hədisə vaqif oldum. Həmin hədis Peyğəmbərin (sallallahu aleyhi və səlləm) bu sözüdür: ***"Üç məsciddən başqa bir yerdə etikaf edilməz".***[64]
Bildiyim qədər, sələfdən Hüzeyfə ibn Yəmən, Səid ibn Müseyyəb və Əta ibn Əbi Rəbah da bu rəydə olmuşdur. Sadəcə olaraq, Əta Məscidul-Əqsanı qeyd etməmişdir. Digər imamlar isə ümumən bütün Cümə məscidlərində etikafın icazəli olduğunu qeyd etmişlər. Başqa bir qismi isə onlara müxalif olmuş və belə demişdir: "Evdə olan namazgahda da etikaf etmək olar". Heç şübhəsiz ki, daha doğru olan – bu rəylər içərisindən Peyğəmbərin (sallallahu aleyhi və səlləm) hədisinə müvafiq olan rəyi götürmək və ona tabe olmaqdır. Hər şeyin doğrusunu bilən isə Uca Allahdır.

• Yuxarıda Aişə anamızın (Allah ondan razı olsun!) sözündə qeyd edildiyi kimi, etikaf edən kəs barədə sünnət olan hökm isə onun oruc tutmasıdır.[65]

---

[63] Beyhəqi İbn Abbasın (Allah ondan razı olsun!) belə dediyini rəvayət etmişdir: "Allahı ən çox qəzəbləndirən şey bidət olan əməllərdir. Evlərdə olan namazgahlarda etikaf etmək də bu cür bidətlərdən biridir".
[64] Hədisi Təhavi, İsməili və Beyhəqi Hüzeyfə ibn Yəməndən (Allah ondan razı olsun!) səhih bir sənədlə rəvayət etmişlər. Hədis "əs-Silsilə əs-səhihə" (2786) əsərində təxric edilmişdir.
[65] İmam İbn Qeyyim "Zədul-Məad" əsərində demişdir: "Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) oruclu olmadığı halda etikaf etdiyinə dair heç bir hədis varid olmamışdır. Əksinə, Aişə anamız (Allah ondan razı olsun!) "orucsuz etikaf yoxdur" – demişdir. Uca Allah da Quranda etikaf ibadətini yalnız və yalnız oruc ilə birlikdə zikr etmişdir, Peyğəmbər (sallallahu aleyhi və səlləm) də yalnız və yalnız oruclu olduğu halda etikaf etmişdir. Bu səbəbdən ən doğru olan rəy əksər alimlərin də dediyi kimi, oruc tutmağın etikaf ibadəti üçün şərt olması rəyidir ki, şeyxülislam İbn Teymiyyə də bu rəyi üstün görmüşdür".
Mən (yəni şeyx Əlbani) deyirəm ki, bu səbəbdən də namaz qılmaq üçün və ya başqa bir səbəbdən dolayı məscidə gedən kəsin oruclu olmadığı halda məsciddə olduğu müddət üçün etikaf ibadətinə niyyət etməsi icazəli deyil. İbn Teymiyyə də bunu "əl-İxtiyarat"-ında açıq bir şəkildə ifadə etmişdir.

### ❖ Etikafda olan kəs üçün icazəli olan şeylər:

• Təbii ehtiyacını ödəməsi üçün məsciddən çıxa bilər. Həmçinin yuyulması və daranması üçün başını məsciddən çölə çıxarda bilər. Aişə anamız (Allah ondan razı olsun!) demişdir: *“Peyğəmbər (sallallahu aleyhi və səlləm) məsciddə etikafda olduğu halda başını mən tərəfə çıxardar, mən isə öz otağımda olduğum halda onun saçını darayırdım.*[66] *O (sallallahu aleyhi və səlləm), etikafda olduğu halda yalnız təbii ehtiyacından dolayı evə daxil olardı”.*[67]

• Etikafda olan və olmayan kəslərin məsciddə dəstəmaz alması icazəlidir. Çünki Peyğəmbərə (sallallahu aleyhi və səlləm) xidmət edən bir kəs belə demişdir: *“Peyğəmbər (sallallahu aleyhi və səlləm) məsciddə xəfif bir şəkildə dəstəmaz aldı”.*[68]

• Etikaf edən kəsin məscidin ən arxa səflərində içərisində etikaf etməsi üçün kiçik bir çadır qurması icazəlidir. Çünki Aişə anamız (Allah ondan razı olsun!) Peyğəmbər (sallallahu aleyhi və səlləm) etikaf etdiyi vaxt onun üçün məsciddə kiçik bir çadır qurardı. Bunu isə onun (sallallahu aleyhi və səlləm) tapşırığı ilə edərdi.[69]
Peyğəmbər (sallallahu aleyhi və səlləm) bir dəfəsində balaca bir türk çadırında etikaf etdi, çadırın qapısına isə həsir qoymuşdu.[70]

---

[66] Məlumdur ki, Peyğəmbərin (sallallahu aleyhi və səlləm) məscidi zövcələrinin hücrələrinə bitişik idi. ***(Tərcüməçi)***
[67] Buxari və Müslim, İbn Əbi Şeybə və Əhməd rəvayət etmişdir. Hədis “Səhih Əbi Davud” (2131-2132) əsərində təxric edilmişdir.
[68] Beyhəqi yaxşı, Əhməd (5/364) isə müxtəsər bir şəkildə səhih sənədlə rəvayət etmişdir.
[69] Buxari və Müslim rəvayət etmişdir.
[70] Əbu Səid əl-Xudrinin (Allah ondan razı olsun!) rəvayət etdiyi hədisin bir hissəsidir. Müslim və İbn Xüzeymə rəvayət etmişdir. Hədis “Səhih Əbi Davud” (1251) əsərində təxric edilmişdir.

❖ **Qadınların etikaf etmələrinin və etikafda olan yoldaşlarını ziyarət etmələrinin icazəli olması:**

• Qadına etikafda olan yoldaşını etikaf etdiyi məsciddə ziyarət etməsi, onun isə öz xanımını məscidin qapısına qədər yola salması icazəlidir. Çünki Safiyyə anamız (Allah ondan razı olsun!) belə demişdir: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) Ramazanın son on günündə etikafda olduğu vaxt, ziyarət etmək üçün gecə onun yanına getdim. Onunla bir saat söhbət etdim, sonra geri qayıtmaq üçün ayağa qalxdım. Mənə dedi ki, tələsmə, gözlə səninlə birgə gəlim. Məni yola salmaq üçün ayağa qalxdı. (Onun qaldığı yer Üsamə ibn Zeydin evi idi[71])Məscidin qapısına çatdıqda, ənsardan iki kişi bizim yanımızdan keçdi. Onlar Peyğəmbəri (sallallahu aleyhi və səlləm) görən kimi sürətlə getməyə başladılar. Peyğəmbər (sallallahu aleyhi və səlləm) onlara belə dedi: "Tələsməyin! Bu, Huyəyyin qızı Safiyyədir". Onlar: "Subhanəllah! Ey Allahın Rəsulu!" – dedikdə,[72] Peyğəmbər (sallallahu aleyhi və səlləm) onlara belə cavab verdi:* ***"Şeytan insanın damarlarında dolaşır. Mən sizin qəlblərinizə şər toxumu (və ya bir şey) düşməsindən ehtiyat etdim".***[73]

Hətta qadına öz yoldaşı ilə birlikdə və ya təkbaşına etikaf etməsi də icazəlidir. Belə ki, Aişə anamız (Allah ondan razı olsun!) demişdir: *"Peyğəmbər (sallallahu aleyhi və səlləm) ilə birlikdə onun yoldaşlarından istihazə olan qadın (yəni Ümmü Sələmə) da etikaf etdi. O, qırmızımtıl və sarı qan görürdü və bəzən namaz qıldığı halda altına teşt qoyardı".*[74]

---

[71] Yəni Safiyyə anamızın (Allah ondan razı olsun!) o vaxt qaldığı hücrəsi daha sonralar Üsamə ibn Zeydin evi olmuşdur. ***(Tərcüməçi)***

[72] Yəni "Ey Allahın Rəsulu! Biz sənin barəndə başqa hansı zəndə ola bilərik ki?!" ***(Tərcüməçi)***

[73] Buxari, Müslim və Əbu Davud rəvayət etmişdir. Hədis "Səhih Əbi Davud" (2133 və 2134) əsərində təxric edilmişdir.

[74] Buxari rəvayət etmişdir. Hədis "Səhih Əbi Davud" (2138) əsərində təxric edilmişdir.

Həmçinin o belə demişdir: “*Peyğəmbər (sallallahu aleyhi və səlləm) vəfat edənə qədər Ramazanın son on gününü etikaf edərdi. Onun vəfatından sonra zövcələri də etikaf edirdilər”.*[75]
Mən (yəni, şeyx Əlbani) deyirəm ki, bu hədisdə qadınların da etikaf etmələrinin icazəli olmasına dəlil var. Lakin bu onların vəlilərinin (yəni ərlərinin və ya atalarının) icazəsinə, həmçinin onların kişilərdən kənar və fitnədən əmin olmalarına bağlıdır. Çünki bu barədə çoxsaylı dəlillər mövcuddur. Həmçinin fiqhi bir qaydada belə deyilmişdir: “Fəsadın uzaqlaşdırılması xeyrin tələb edilməsindən önə çəkilməlidir”.

• Cinsi əlaqədə olmaq etikafı pozur. Çünki Uca Allah belə demişdir: ***“Məscidlərdə etikafda olduğunuz zaman onlarla (yoldaşlarınızla) yaxınlıq etməyin”.***[76]
İbn Abbas (Allah ondan razı olsun!) demişdir: “Etikaf edən şəxs yoldaşı ilə yaxınlıq etsə, etikafı batil olar və yenidən başlamalıdır”.[77]
Etikafı pozduğuna görə hər hansı bir kəffarə də ödəmir. Çünki bu barədə Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) heç bir şey varid olmamışdır.

---

75 Buxari, Müslim və İbn Xüzeymə (hədis: 2223) rəvayət etmişlər. Hədis, “əl-İrva” (966) və “Səhih Əbi Davud” (2125) əsərlərində təxric edilmişdir.
76 Əl-Bəqərə: 187
77 İbn Əbi Şeybə (3/92) və Əbdürrəzzaq (4/363) səhih sənədlə rəvayət etmişdir.

وسبحانك اللهم وبحمدك, أشهد أن لا إله إلا أنت, أستغفرك وأتوب إليك.

وانتهى إعادة النظر فيه وتنقيحه وإضافة فوائد جديدة إليه بقلم مؤلفه فجر يوم الأحد 26 رجب سنة 1406هـ وصلى الله على محمد النبي الأمي وعلى آله وصحبه وسلم.

Allahım! Sən bütün qüsurlardan münəzzəhsən! Sənə həmd olsun! Şəhadət edirəm ki, Səndən başqa ibadətə layiq haqq məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm. Hicrətin 1406-cı ili, Rəcəb ayının 26-sı, bazar gününün sübh çağı müəllifin qələmi ilə bu kitabın yoxlanışı, düzəlişi və kitaba yeni faydaların əlavə edilməsi başa çatdı.[78]

[78] Həmçinin hicrətin 1441-ci ili, Şaban ayının 26-sı, bazar gününün İşa namazından sonra tərcüməçinin qələmi ilə bu kitabın tərcüməsi və kitaba əlavə faydaların qeyd edilməsi və təhqiqi tamamlandı. ***(Əbu Zeyd Həbibli)***

**Mündəricat**

Tərcüməçinin müqəddiməsi........................................................3
Ramazan gecələrini ibadətlə keçirməyin fəziləti..........................5
Qədr gecəsi və bu gecənin təyini.................................................6
Gecə namazlarını camaatla qılmağın icazəli olması......................7
Peyğəmbərin (sallallahu aleyhi və səlləm) Ramazan gecələrində camaata namaz qıldırmağa davam etməməsinin səbəbi................8
Təravih namazının camaat şəklində qılınmasının qadınlara icazəli olması..........................................................................................9
Gecə namazlarının rükət sayı.......................................................10
Gecə namazlarında Quran qiraəti.................................................12
Gecə namazının vaxtı...................................................................14
Gecə namazının qılınma şəkli......................................................16
Vitr namazının üç rükətində Quran qiraəti...................................18
Qunut duası...................................................................................19
Vitr namazının sonunda oxunan dua............................................21
Vitr namazından sonra iki rükət namaz qılmaq...........................22
Etikafın icazəli olması..................................................................24
Etikafın şərtləri.............................................................................25
Etikafda olan kəs üçün icazəli olan şeylər...................................27
Qadınların etikaf etmələrinin və etikafda olan yoldaşlarını ziyarət etmələrinin icazəli olması..........................................................28